**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№354/4** **14 mart 2023-cü il**

**Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"ndə dəyişiklik edilməsi barədə**

Auditor xidməti bazarında dövlət büdcəsindən tam maliyyələşdirilən sifarişçi təsərrüfat subyektlərində auditor xidmətlərinin dəyəri barədə obyektiv fikrin formalaşdırılması, habelə ölkə ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin təsdiq edilmiş minimum hədlərinə əlavə dəyər vergisinin daxil olub-olmamasına dair Auditorlar Palatasının üzvləri tərəfindən daxil olmuş müraciətləri nəzərə alaraq Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"ndə dəyişiklik edilməsi barədə layihəni müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə edilmiş dəyişikliklər təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə yeni redaksiyada 1.3-cü "Dövlət büdcəsindən tam maliyyələşdirilən qurumlar üzrə" bəndi əlavə edilsin.
3. Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə "ƏDV-siz" sözü əlavə edilsin.
4. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, bir həftə müddətində bu qərarın və "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"ndə edilmiş dəyişikliyin Palatanın üzvlərinə göndərilməsi təmin edilsin.
5. Sədrin müşaviri F.Qarayevə və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədova tapşırılsın ki, bir həftə müddətində bu qərarın və "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"ndə edilmiş dəyişikliyin mətnlərinin Palatanın internet səhifəsində və "Auditorun şəxsi kabineti" sistemində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**